


100 il

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

28 sentyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 37 (3651)


# Zəfərə aparan 44 gün...

## Azərbaycan xalqı Vətən övladlarının xatirəsini ehtiramla anır

**27 Sentyabr qürur, fəxarət günümüzdür. Tarixi zəfərimizə aparan 44 günlük Vətən müharibəsinin başlandığı gün və bu müqəddəs savaşda 30 illik həsrətimizə canı və qanı bahasına son qoyan qəhrəman, igid oğullarımızın Anım Günüdür.**




Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının üzərinə gül dəstələri qoyublar.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsinin başladığı günün - 27 sentyabrın Anım Günü kimi qeyd edilməsi qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.

### "Dəmir yumruq" əməliyyatı

Əks-hücum əməliyyatının ilk saatlarında cəbhə xəttindən sevindirici xəbərlər gəlməyə başlamışdı. Düşmənin xüsusilə möhkəmləndirilmiş ön müdafiə xəttini yaran Azərbaycan Ordusunun Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərini, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəklikləri azad etməsi qarşıdakı böyük Qələbəmizin ilk müjdəsi oldu.

"Dəmir yumruq" əməliyyatı ilə Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Bundan bir gün sonra Cəbrayıl şəhəri, oktyabrın 9-da isə Hadrut qəsəbəsi düşməndən təmizləndi. Ermənistan silahlı qüvvələrinin "məğlubedilməzlik" mifini darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu.

Ordumuz oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi Qarabağın döyünən ürəyi Şuşa şəhəri idi. Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüləri dağlardan, meşələrdən, cığırlardan keçərək, Şuşanın sıldırım qayalarına dırmaşaraq, bir neçə istiqamətdən şəhərə daxil oldular. Qəhrəman ordumuz dünya hərb tarixində özünəməxsus yer tutan Şuşa əməliyyatını uğurla başa çatdırdı. Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi müjdəsini noyabrın 8-də səhər saatlarında Şəhidlər xiyabanından verdi.

Böyük Qələbə münasibətilə Prezident müraciətində böyük fəxarət və qürur hissi ilə xalqımızı təbrik edirdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

# Prezident və Birinci vitse-prezidentdən paylaşım

## Anım Günü qəhrəmanlarımızın əziz xatirəsinə ehtiram ifadə olunub

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda "27 Sentyabr - Anım Günü" sözləri yazılıb.

Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi instaqram hesabında 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşımında deyilir: "Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

# Prezident dövlət katibi ilə danışıb

## Qarabağla bağlı fikir mübadiləsi aparılıb

Sentyabrın 26-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı, erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlət başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb. Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyi və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyi ABŞ tərəfinə bildirilib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev sentyabrın 27-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul edib.
- Prezident İlham Əliyev sentyabrın 23-də Azərbaycanın ictimai-siyasi həyatında xidmətlərinə görə Tahir Süleyman oğlu Süleymanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev sentyabrın 23-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.
- Prezident İlham Əliyev sentyabrın 22-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Praysı qəbul edib.

# DİN rəhbərliyi Zəfər parkını ziyarət edib

Sentyabrın 27-də Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin əməkdaşları Bakıda inşası davam etdirilən Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə daşının önünə gül dəstələri qoyublar.







Şəhidlər qəhrəmanlarımızdır! 2

Humanizm ən ali dəyərimizdir 2

Həqiqət və ədalət naminə 3

Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları 4

# ŞƏHİDLƏR QƏHRƏMANLARIMIZDIR!

## Onlar ən ali qürur mənbəyimizdir, Vətən uğrunda vuruşan hər bir əsgər qəhrəmandır

2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ ərazisində keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olunub.

Antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub. Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Bir nəfər isə mülki şəxsdir.

Daxili Qoşunların şəhid olan hərbi qulluqçuları və polis əməkdaşları bu lokal antiterror tədbirlərində də tariximizə yeni qəhrəmanlıq səhifəsi yazıb, şanlı salnaməyə öz qanları ilə imza atdılar.

Hər bir hərbçimiz, hər bir əməkdaşımız xidmətə başladığı andan xalqa sədaqətlə xidmət etmək və onun maraqlarını mərdliklə qorumaq andına nə qədər sadiq olduğunu dəfələrlə tarixin belə taleyüklü anlarında şəhidlik zirvəsinə ucalmaqla təsdiq ediblər.

Ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş bütün əməkdaşlarımızın əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır!


Polkovnik-leytenant
Hüseynov Rəşad Rəhim oğlu
10.03.1980


Gizir
Rəcəbov Vaqif Yaqub oğlu
23.02.1982


Gizir
Əhmədov Elvin Qələndər oğlu
15.01.1990


Baş çavuş
Hüseynov Ramin Rövşən oğlu
01.06.1987


Çavuş
Əliyev Zahir Sədi oğlu
04.01.1987


Kiçik çavuş
Mehdiyev Süleyman Mənsur oğlu
28.02.1992


Əsgər
Məmmədov Azər Sulduz oğlu
09.01.1990


Əsgər
Babayev Sahil Sarıbala oğlu
21.03.1992


Əsgər
Nəbiyev Fərid Kamran oğlu
01.01.2001


Əsgər
Sadıqov Samir Cəbrayıl oğlu
22.08.2000


Əsgər
Vəlizadə Rəşad Rasim oğlu
13.07.1999


Əsgər
Səmədov Camal Vüqar oğlu
11.07.1991

# RESPUBLİKA XƏBƏRLƏRİ

### İşçi qrup yaradılıb

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında İşçi qrup yaradılıb. Prezident Administrasiyasından bidirilib ki, İşçi qrup Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı çərçivəsində fəaliyyət göstərir. İşçi qrupun tərkibinə bir çox dövlət qurumları daxildir.

### Karantin rejiminin müddəti uzadılıb

Xüsusi karantin rejiminin müddətinin uzadılması barədə qərar qəbul edilib. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 yanvar saat 06:00-dək uzadılıb.

### Büdcə layihəsi müzakirə edilib

2024-cü ilin dövlət büdcəsinin layihəsi Nazirlər Kabinetinin iclasında müzakirə olunub. Maliyyə Nazirliyindən bildirilib ki, yekun qərarın əks olunduğu layihələr “Büdcə sistemi haqqında” Qanunun 12-ci maddəsində nəzərdə tutulan digər sənədlərlə birlikdə Prezidentə təqdim edilib. Qərara əsasən, Maliyyə Nazirliyinin ilkin açıqladığı dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri 408,0 milyon manat artırılıb və müvafiq olaraq gəlirlər 34173,0, xərclər isə 36763,0 milyon manata çatdırılıb.

### Növbəti görüş Xocalıda oldu

Xocalıda Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələri ilə növbəti görüş baş tutub. Sentyabrın 25-də Xocalı şəhərində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədovun Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə növbəti görüşü olub. Qeyd edək ki, lokal xarakterli antiterror tədbirlərindən sonra ilk danışıqlar sentyabrın 21-də Yevlax şəhərində keçirilmişdi.

### Separatçı "dövlət naziri" tutuldu

Azərbaycan Respublikasının ərazisinə qeyri-qanuni gələrək qondarma “Dağlıq Qarabağ respublikasının dövlət naziri” vəzifəsində çalışmış 1968-ci il təvəllüdlü Ruben Karleni Vardanyan sentyabrın 27-də “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının sayıqlığı nəticəsində Azərbaycan Respublikasından Ermənistan istiqamətində hərəkət edərkən saxlanılıb. R.Vardanyan Xidmətin Çevik Hərəkət Qüvvələri əməkdaşlarının müşayiəti ilə Bakı şəhərinə gətirilib.Saxlanılan şəxs barəsində müvafiq qərar qəbul edilməsi üçün aidiyyəti dövlət orqanlarına təhvil verilib.

# Humanizm ən ali dəyərimizdir

## Azad etdiyimiz torpaqlarda birliyi, bərabərliyi və əmin-amanlığı qoruyuruq

Bu şəkillər hələ uzun illər yaddaşlarda, sonra arxivlərdə qalacaq. Düşmənin dosta çevrilməsi, dünyanın bizim ədalətimizə inanması üçün bunu etmirik. Bu, bizim qan, gen yaddaşımızdan gələn dəyərlərdir. İllər öncə Gülüstandan, Türkmənçaydan sonra tarixi torpaqlarımızda məskunlaşanlara da xoş üz göstərib, hətta süfrəmizin başında oturtmuşuq. Xeyirxahlığımız, ədalətli olmağımız qənimimizə çevrilsə də, necə deyərlər, “xəmirimiz belə yoğrulub”.

Ancaq haqsızlıq bıçaq olub sümüyə dirənəndə, səbrimizin tanrının da daşmağını istədiyi anda…





### O an 2020-ci ilin sentyabrında gəldi və…

Və biz Xankəndinin bir addımlığında, daha doğrusu, başının üstündə möhkəmləndik. Xankəndindəkilər yenə fərağat durmadı, əl uzatdı, dil uzatdı. Ox kimi gərilən əsəblərimiz o zaman yayından çıxdı ki, düşmən minaları dinc insanların, sonra da onlara yardıma tələsən Azərbaycan Polisinin həyatına son qoydu. Bu qığılcım hələ sönməyən müharibə közünü İrəvanı belə yandıra biləcək alova çevirdi.

### 23 saat, 43 dəqiqə

Bu şəkillər, əslində, 23 saat, 43 dəqiqə ərzində yaşananların finalıdır. Bu şəkillər Valdaydakı nidanın “Artsax” təəssübkeşlərinin ümidlərinə başdaşı olduğunun bariz nümunəsi , Ermənistanın isə Qarabağ Azərbaycandır etirafıdır.

Bəlkə də oğlu, qızı, yaxın qohumu Xocalıda qanımızı tökən, Şuşa həbsxanasında əsgərlərimizə işgəncələr verən bu yaşlı insanlara, əli yalın sakinlərə və yaxud da silahı yerə qoyub aman diləyənlərə Azərbaycan Polisi əlləri ilə çörək, su verir, yarasını sarıyır, qayğısına qalır. Nifrətimiz, qəzəbimiz soyumayıb, ancaq biz insanıq axı…

Biz, sözün əsl mənasında, humanitar dəhliz yaratmışıq. Can qurtarırıq, can almırıq. Bu çadırlar onların təhlükəsizliyi, həyatlarının xilası üçün dövlətimiz tərəfindən yaradılıb. İnsanpərvərliyimizi, humanistliyimizi Azərbaycan etnik təmizləmə aparır deyənlər, vaxtilə haqsızlığa göz yumanlar, susanlar görməsə də olar. Görən görür…

Bu şəkillərin bizə düşmən kəsilənlərin ürəyini yumşaltmasına əminliyimi yazmaqda çətinlik çəksəm də, ölkəmin, dövlətimin öz vətəndaşına qayğısını, doğmalağını, ən çətin şərtlər altında belə onu qorumağını yazmaqda çətinlik çəkmirəm.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Asayişin, sabitliyin keşiyində

## Dünən səngərdə, bu gün sıralarımızdadır

Zamanın axarını dəyişdirən Vətən müharibəsi illərdir ki, qanımızda coşub-qaynayan qəhrəmanlığımızı yenidən sübut etmək üçün, sözün əsl mənasında, bizə meydan verdi. Məğlubiyyət acısının, torpaq itkisinin dinc şəraitdə belə neçə-neçə insanın həyatına son qoyması gərilən əsəblərimizi 2020-ci ildə güllə kimi düşmən üzərinə yağdırdı. Leksikonumuzda qalib Xalq, qalib Ordu kəlmələri boy verdi. 7-dən 77-yə bu sözləri fəxarət hissi ilə hər yerdə, özü də ucadan deyə bildik. Həsrətində olduğumuz günlərə, topraqlara qovuşdurdu bizi 44 gün.





Azərbaycan gəncliyi üç il öncə həm də öz işıqlı gələcəyinin konturlarını cızdı. Üçrəngli bayrağın altında daha böyük qələbələr qazanmağın, zirvələr fəth etməyin yolu bu gün Xankəndindən keçir…

Döyüşən oğulların sırasında Vətənə borcunu ödəyənləri, odlardan, alovlardan keçənləri bu gün bizimlə çiyin-çiyinə asayişi, əmin-amanlığı qorumaq üçün daxili işlər orqanlarına qəbul edən DİN rəhbərliyi ali rəhbərimizin tapşırığına uyğun olaraq onların həyatında yeni bir səhifə açdı.

Onlardan biri də Ülvi Yusif oğlu Babayevdir.

Ülvi Babayev 1996-cı ildə Naxçıvan MR Şərur rayonunun Kürkənd kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra 2013-2017-ci illərdə Naxçıvan Dövlət Universitetində təhsil alıb. Təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanıb.

2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərib.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə “Cəbrayılın azad olunmasına görə” və “Zəngilanın azad olunmasına görə” medalları ilə təltif edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə “Vətən müharibəsi iştirakçısı” medalına layiq görülüb.

O, 2022-ci ildən daxili işlər orqanlarında xidmətə qəbul olunub. Nərimanov RPİ-nin Post-Patrul Xidməti Bölüyünün polis kiçik serjantıdır.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Qəhrəmanlarımız yad edildi

## Daxili İşlər Nazirliyi 27 sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirib






Sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Daxili İşlər Nazirliyi tərəfindən Anım Gününün üçüncü ildönümünə həsr olunmuş mərasim keçirilib. Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində, o cümlədən 2023-cü ilin 19 – 20 sentyabr tarixlərində Qarabağ ərazisində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

Tədbirin davamında çıxış edənlər istər Birinci Qarabağ döyüşlərində, istərsə də 44 günlük Vətən Müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının ön cəbhənin müxtəlif istiqamətlərində işğalçı düşmənə qarşı mətinliklə döyüşdüklərini bildiriblər.

Çıxışçılar bu gün işğaldan azad olunan ərazilərdə Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla qeyd ediblər.

Tədbirin sonunda Samir Qulamovun qəhrəmanlıq salnaməmizi özündə əks etdirən "Bir nəfəs qədər" pyesi əsasında hazırlanan eyniadlı tamaşası nümayiş etdirilib.

# Akademiyada "Qaynar xətt" yaradılıb

## Müraciətlərin cavablandırılması daha asan olacaq



Vətəndaşlar tərəfindən daxil olan müraciətlərin birbaşa və operativ əlaqələndirilməsi məqsədilə DİN-in Polis Akademiyasında "8880" nömrəli "Qaynar xətt" xidməti yaradılıb. "Qaynar xətt" Polis Akademiyasında əyani və qiyabi təhsilə qəbul qaydaları, Akademiyada təhsilin üstünlükləri və digər məsələlərlə bağlı məlumatın əldə edilməsi, zənglərin tez bir zamanda cavablandırılaraq aidiyyəti üzrə tədbirlərin görülməsinin asanlaşdırılmasına xidmət edir. "8880" "Qaynar xətt" xidməti iş günləri saat 09:00-dan 18:00-dək, şənbə günü saat 09:00-dan - 14:00-dək, qeyri-iş günlərində isə avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərəcək.

# Ünvanına çatmayan sifariş...

## Narkokuryerlik edən şəxs saxlanılıb



Qazax Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İrandan qeyri-qanuni yolla Qazax rayonu ərazisinə gətirilmiş narkotik vasitəni onlayn sifariş kimi qəbul edərək ölkə ərazisində çatdırılmasını təmin edən narkokuryer saxlanılıb.

Araşdırmalar zamanı məlum olub ki, Sumqayıt şəhər sakini Cəlal Əzizov Qazax rayonuna gələrək rayon ərazisində gizlədilən narkotik vasitəni nağd pul və bir miqdar narkotik vasitə qarşılığında ölkənin digər şəhər və rayonlarına aparmağa razılaşıb.

Həmin şəxs saxlanılaraq polis şöbəsinə gətirilən zaman əlindəki qara rəngli çantadan 1 kiloqram 11 qram heroin, 855 qram qurudulmuş marixuana, 15 ədəd metadon həbi aşkar olunaraq götürülüb.

# Şəhid ailələri ziyarət olunub

## Tarixi ədaləti və torpaqlarımızın bütövlüyünü bərpa edənlərin doğmaları bizə əmanətdir

27 sentyabr – Anım Günü ilə əlaqədar paytaxtda və bölgələrdə polis əməkdaşları şəhid ailələrinə baş çəkib, qayğıları ilə maraqlanıblar.

Bildirilib ki, müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindəndir.

Ziyarət zamanı Vətən müharibəsində, eləcə də lokal antiterror tədbirlərində şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın igidlik və şücaətindən danışılıb, onların fədakarlıqlarının qəlblərdə əbədi yaşayacağı qeyd olunub.

Şəhidlərimizin ailə üzvləri onlara göstərilən diqqətə və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

*Teymur Əlizadə*
*polis mayoru*

# Həmkarların yeni əməlləri

## Silsilə oğurluqlar edən dəstə üzvləri tutulub

Quba Rayon Polis Şöbəsinin əməkdaşları rayonun müxtəlif ərazilərindən silsilə oğurluqlar törətməkdə şübhəli bilinən, əvvəllər eyni əmələ görə dəfələrlə məhkum olunan 4 nəfəri saxlayıb.

Onlar Quba rayon sakini Rəşad Quliyev, Beyləqan rayon sakinləri Nadir Nadirli, Bəxtiyar Nərimanov və Gəncə şəhər sakini Röyal Hüseynovdur.

Araşdırmalar zamanı məlum olub ki, həmin şəxslər qabaqcadan əlbir olaraq rayon ərazisində evlərə girərək oradan 1350 manat pul, 100 ABŞ dolları və ümumi dəyəri 1110 manatdan çox edən qızıl-zinət əşyaları oğurlayıblar.

Faktlarla bağlı Quba RPŞ-də cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə Rəşad Quliyev, Nadir Nadirli və Bəxtiyar Nərimanovun barəsində həbs, Röyal Hüseynovun barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

# Həqiqət və ədalət naminə

## Maddi zərərin ödətdirilməsi prioritet hədəflərdən biridir

**Müasir dövrdə sabitlik bir çox amilə bağlıdır. Qanunun aliliyi və ədalətin bərpa edimməsi isə həmişə başlıca kriteriya kimi sabitlik anlayışının mərkəzində dayanıb.**

Buna polisin vəzifəsi prizmasından baxanda, qarşımızda duran vəzifələr tələb edir ki, cinayətkarın məsuliyyətə cəlb edilməsini nə qədər vacib hesab ediriksə, cinayət yolu ilə əldə olunmuş pulun, əmlakın vurulmuş ziyanın ödətdirilməsinə yönəldilməsini də bir o qədər önəmli sayaq. Çünki cinayətin ağırlıq dərəcəsindən asılı olaraq, ədalətin tam bərpa edilməsi bu halda mümkün olur.

### Polis ədalət mühakiməsində necə iştirak edir?

İbtidai araşdırmanın ilk vəzifəsi cinayət törədilməsində təqsirləndirilən şəxsin təqsirli və ya təqsirsiz olmasını müəyyən edən sübutların toplanmasından ibarət olsa da, zərərin təhqiqat - istintaq mərhələsində ödənilməsi ilkin araşdırmanın ilk uğuru sayılır. Polisin bu istiqamətdəki fəaliyyəti ilə bağlı hər gün vətəndaşlar dələduzluq cinayətindən tutmuş, yol-nəqliyyat hadisələri zamanı avtomobilə dəymiş maddi zərərin ödətdirilməsinə qədər üzləşdikləri müxtəlif qanun pozuntusunun aradan qaldırılmasına görə təşəkkür və minnətdarlıq edirlər. Bu vətəndaşların hər birinin fikri sanki polisin yerlərdə "ədalət mühakiməsində" iştirak səviyyəsini göstərən indikatordur. Həm də inzibati ərazilərdəki idarə, şöbə və bölmələrin ədalətə açılan qapı olması gerçəkliyini ifadə edən indikator.

Bütövlükdə isə məhkəmə hökmünün qanuniliyi, əsaslılığı və ədalətliliyi də ibtidai araşdırmanın operativliyindən, vaxtında aparılmasından və obyektivliyindən xeyli dərəcədə asılıdır. Yüksək keyfiyyətli və bacarıqla aparılmış ibtidai araşdırma törədilmiş cinayətin mahiyyətini, təqsirləndirilən şəxsin günahkar olub-olmadığını düzgün araşdırmağa, ədalətli cəza tədbiri seçməyə, eləcə də hökmlə əlaqədar digər məsələləri həll etməyə imkan verir. Zərərin ödətdirilməsinə elə bu konteksdə yanaşsaq, təhqiqatçı və müstəntiqlərin həqiqətin üzə çıxarılması, şəxsin günahkar olub-olmadığını düzgün araşdırmağa... 

Yeri gəlmişkən, bu məsələ ilə bağlı cari ilin 8 ayının göstəricilərinin də pozitiv məzmun daşıdığını qeyd edə bilərik. Çünki polis müstəntiqlərinin icraatında olan və istintaqı tamamlanmış cinayət işləri üzrə vurulmuş maddi ziyanın ödətdirilməsi bu dövrdə 76,5 faiz təmin edilib.

Nəticənin təhlilləri göstərir ki, zərərçəkən itirdiyi vəsaiti, əmlakını yenidən əldə etdiyinə görə məmnun qalır, pozulmuş hüququn bərpa edilməsi təhqiqatçılar, müstəntiqlər üçün xidməti uğur sayılır, məhkəmələr isə bir çox halda əlavə işlərlə yüklənmir. İlkin araşdırma prosesində məsələnin öz həllini tapması halında isə bundan cinayət törədən şəxs də "qazanclı" çıxır. O mənada ki, islah olunmağın əhəmiyyətini iş işdən keçəndən sonra yox, daha tez anlayır.

### Başlıca meyar vətəndaş məmnunluğudur

Təhqiqat və istintaq işinin düzgün təşkili hüquqları qorunan, ədalətin bərpa edildiyinin şahidi olan vətəndaşların məmnun qalmasını şərtləndirir. Bütün kollegiyalarda, naziryanı iclaslarda da müxtəlif xidmət sahələrinin rəislərinin qarşısında rəhbərliyin daima dəyişməz olaraq bir tələbi qoyulur: vətəndaşlar polisin fəaliyyətindən razı qalmalı, məmnun olmalıdır! Qanunçuluğun qorunması və prosessual araşdırmaların düzgün aparılması kimi vacib istintaq tədbirlərindən söz gedəndə isə bu tələbin təsir qüvvəsi bir qədər də artmış olur.

Bir sözlə, qanunla müəyyən edilmiş funksiyaların, hüquqi prosedurların və cinayət təqibinin dəqiq, düzgün, effektiv həyata keçirilməsi istintaqın və təhqiqatın əsas keyfiyyət göstəricisi, fəaliyyətin qiymətləndirilməsinin başlıca meyarı isə vətəndaş məmnunluğudur.

*Rəşad Mehtiyev*

# Oğrunun etirafı

## Saatlıda oğurluq edən şəxs tutulub



Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində müxtəlif vaxtlarda evdən və mağazadan oğurluq edən şəxs saxlanılıb.

Sentyabrın 2-də gecə saatlarında rayon ərazisində yerləşən fərdi yaşayış evlərinin birinə qanunsuz daxil olaraq oradan soyğunçuluq yolu ilə 1500 manat dəyərində qızıl-zinət əşyaları, 2150 manat və bank kartları ələ keçirməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də məhkum olunmuş və sonuncu dəfə törətdiyi oğurluq əməlinə görə axtarışda olan Vüsal Vəliyev saxlanılıb.

Dindirilmə zamanı V.Vəliyev törətdiyi oğurluq faktını etiraf edib. Şöbə əməkdaşları tərəfindən sonuncunun ətrafında aparılan əməliyyat tədbirləri nəticəsində onun törətdiyi daha bir analoji cinayət əməlinin üstü də açılıb. Belə ki, V.Vəliyevin sentyabr ayının əvvəlində Saatlı rayonu ərazisində yerləşən mağazaların birinə qanunsuz daxil olaraq oradan ümumi dəyəri 4800 manatdan artıq olan qızıl-zinət əşyaları, bəzək və telefon aksesuarları, eləcə də 110 manat oğurlayaraq zərərçəkmişə maddi ziyan vurduğu da məlum olub.

## Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2023-cü il - 31 may 2024-cü il tarixədək qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)

| 16 sentyabr 2023-cü il - 31 may 2024-cü il<br>(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

**Qeyd:**

1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, su attraksionundan, trenajorlardan, mini futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Poçt indeksi: AZ 1090. “Koroğlu” metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.

**Mobil telefon: (+994 50) 291-15-51**
**(+994 55) 291-15-51**
**Telefon: (+994 12) 554 47 60**
**Faks: (+994 12) 453 63 33**
**E-poçt: info@khazri.mia.gov.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Müəmmalı qadın üzə çıxır

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



*(Əvvəli ötən sayımızda)*

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

Amma Noel ailəsinin cinayətləri barədə düşünmək, ictimai maraqları yada salaraq, öz vəzifəmi sona qədər yerinə yetirməyə qətiyyətli qaldım.

Danışıq zamanı xanım Noel məndən hər hansı oğurluq barədə düşünüb-düşünmədiyimi soruşdu. Əgər belə məşğuliyyətim yoxdusa, tapa biləcəyini dedi. Daha sonra saxta açarlar hazırlamaq məharətim olub-olmadığını soruşdu. Cavab verdim ki, bu sənətdə Fossardan belə geri qalmıram.

- Əgər belədirsə, o dedi, mən rahat oldum ki, siz yaxşı məşğuliyyət tapa biləcəksiniz.

Bu işdə sənətkarsınızsa, onda mən çilingərdən açar alacam, siz bu açarı mənim gizli qıfılıma uyğunlaşdıracaq və özünüzdə saxlayacaqsınız. Beləliklə, istədiyiniz kimi evə girib-çıxa biləcəksiniz.

Minnətdarlığımı bildirdim. Gec olduğu üçün yatmağa getdim və düşünürdüm ki, bu vəziyyətdən necə çıxım, bir tədbir görüm ki, axtardığım bu cinayətkarlar təsadüfən gəlsə, məni öldürməsinlər.

Gözümü yummamışdım və xanım Noelin ocağı yandırmağını eşidən kimi oyandım. O dedi ki, tezdən durub mənim işlərimin dalınca gedir. Bir neçə dəqiqədən sonra köhnə açarları, kiçik mişar və kəlbətini gətirdi. Bu alətlərdən istifadə edərək işə başladım. Cəld işləməyimə heyran olmuşdu. Yaxşı saxta açar düzəltdim, onu sınaqdan çıxardım, açar qıfılı rahat açdı.

Bir sözlə, mən Noel xanımın evinin sakini oldum. Nahardan sonra ona məlumat verdim ki, gəzməyə gedirəm, görüm, qaranlığın düşməyindən istifadə edərək, nəzərdə tutduğum işləri görmək mümkün olacaqmı? O, niyyətimi təqdir etdi və ehtiyatlı olmağımı söylədi.

- Bu quldur Vidok çox təhlükəlidir və yerinizdə olsaydım ayaqlarım tam sağalana qədər heç nə etməzdim. Paris polisinin əsas xəfiyyəsi kimi ətrafına topladığı “mütəşəkkil cinayətkar dəstə” ilə çalışır. Hər yerdə ona rast gələ bilərsən, diqqətli ol!

- Yox çox uzağa getməyəcəm və bayırda çox da qalmayacam.

Tez qayıdacağım barədə dediklərim onu sakitləşdirdi.

- Yaxşı, gedin, Allah köməyiniz olsun, - deyə o, mənə xeyir-dua verdi. Mən isə axsayaraq evdən çıxdım.

İndiyə qədər hər şey yolunda gedirdi. Bu qadın yalnız öz sirrini qorumaqla məşğul idi – bunu bilirdim. O, Mələk qiyafəsində olmağına baxmayaraq, Parisin bütün sirlərinin onda olduğunu hər dəfə deyir, bununla qürur duyurdu.

Xanım Noelin xoş münasibətini qazanmaq o qədər də çətin olmadı. Lakin onun evində qalarkən əmin ola bilərdimmi ki, məni öldürməyəcəklər? Məgər birdən, qəfildən, 2-3 katorqaçı gəlib mənimlə pis zarafat etməzdilərmi?

Bu halda bütün kombinasiyalarıma əlvida deməliydim. Buna görə xanım Noelə dostluğa görə sağ ol deyib, hər ehtimala qarşı tədbirlər görməliydim. Ona dostlarının iti gözlərindən gizlənməyə əsasım olması barədə şübhələr verə bilməzdim. Buna görə, etməliydim ki, özü məni inandırsın ki, buradan getmək elə mənim maraqlarıma uyğundur.

Müşahidə etmişdim ki, xanım Noel elə bu evdə yaşayan meyvə satan xanımla dostluq münasibətindədir. Nanso adlı agentimi bu xanımın mənzilinə göndərdim, tapşırdım ki, sakit formada xanım Noel haqqında sorğu-sual etsin. Sualları agentə öyrədəndən sonra, planımın baş tutacağına tam əmin idim. Bilirdim ki, meyvə satan xanım bu barədə dərhal ev sahibinə, yəni xanım Noelə xəbər verəcək. Agentimə də tapşırmışdım ki, israrla bu xanıma hər şeyin çox gizli qalmasını söyləsin.

İşlərin gedişi göstərirdi ki, mən haqlıydım. Agentim meyvə satan xanımla söhbət etdikdən sonra, o, dərhal bu barədə xanım Noelə məlumat verdi, o, isə mənə danışdı. Qapıdan çıxdı, uzaqdan məni evə gələn görüb, tələsik mənə tərəf addımladı və tez onun ardınca gəlməyimi söylədi. Mən onunla birgə addımladım, Qələbə meydanına çatanda, ətrafa göz gəzdirdi, heç kimin izləmədiyinə əmin olduqdan sonra hər şeyi danışdı.

- Bax özünüz görürsünüz, mənim yazıq Jemenim. Yaxşı olar ki, siz mənim evimdə gecələməyəsiniz.

Xanım Noel bilmirdi ki, onu doğrudan da həyəcanlandıran bu məsələ mənim planımdır. Onu şübhələndirməmək üçün, özümün ondan daha çox kədərləndiyimi göstərdim. Bizə - cinayətkarlara rahatlıq verməyən təhlükəli Vidoku lənətlədim. Parisdən kənarda gecə sığınacaq axtarmalı olduğuma görə kədərləndiyimi söylədim və xanım Noellə sağollaşdım. O, uğurlar arzuladı, tezliklə görüşəcəyimizə ümid etdiyini dedi və ovcuma 30 frank qoydu.

*(Ardı var)*

# Atıcılıq üzrə yarışın qalibləri müəyyənləşib

## Qazanılan uğurlar qısa zamanda görülən işlərin nəticəsidir





Sentyabrın 22-dən 24-dək Bakı Atıcılıq Mərkəzində dövlət qurumlarının əməkdaşları arasında ilk dəfə keçirilən stend atıcılığının "sporting" növü üzrə yarışa yekun vurulub.

Qurumların qadın və kişilərdən ibarət qarışıq komandalarından ilk "dörd"lüyə düşənlər finalda mübarizə aparıblar. Qadınlar arasında Gənclər və İdman Nazirliyinin əməkdaşı yarışı birinci yerdə tamamlayaraq qızıl medala layiq görülüb. İkinci və üçüncü yerləri, müvafiq olaraq, Daxili İşlər Nazirliyi və Gənclər və İdman Nazirliyinin əməkdaşları tutublar.

Kişilər arasında Ədliyyə Nazirliyinin əməkdaşı qızıl, Fövqəladə Hallar Nazirliyinin əməkdaşı gümüş, SOCAR-ın əməkdaşı isə bürünc medala layiq görülüb.

Qarışıq komanda yarışında Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət kollektiv fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Maliyyə Nazirliyi gümüş, Gənclər və İdman Nazirliyi isə bürünc mükafata sahib çıxıblar.

Yaxşı nəticə göstərən komandaların əməkdaşlarına medallarla yanaşı, diplom və hədiyyələr də təqdim edilib.

*"Polis"*

# Güc və peşəkarlıq qalib gəldi...

## Kikboksinq üzrə 26-cı Respublika Kubokunu DİN-in İdman Cəmiyyətinin yetirmələri qazanıb



Sentyabrın 22-i və 24-ü tarixlərində Kikboks üzrə keçirilən Azərbaycan Çempionatında 80 idman klubunu təmsil edən 700-dən çox idmançı gücünü sınayıb.

DİN-in İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədovun və Kikboksinq üzrə Gənclər və Yeniyetmələr üzrə Milli Yığma Komandanın baş məşqçisi, DİN-in Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyevin tələbələri də çempionatda DİN İdman Cəmiyyətini layiqincə təmsil ediblər.

Çempionatda Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin kikboksçuları ümumilikdə 5 qızıl, 7 gümüş, 10 bürünc medal qazanmaqla komanda üzrə 1-ci olublar.

Çempionata qatılan polis əməkdaşlarından Xətai RPİ-nin 37-ci PŞ-nin YYÇ üzrə inspektoru, polis kapitanı Abbas Tunc ayağından aldığı zədəyə görə bürünclə kifayətlənib. Yeri gəlmişkən, o, noyabrın 16-da Portuqaliyada WAKO üzrə keçiriləcək dünya çempionatına lisenziya qazanan ilk polis əməkdaşıdır.

Qeyd edək ki, Bakı şəhər BPİ-nin Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan Yol-Patrul Xidməti Alayının taqım komandiri, polis kapitanı Kamran Hüseynov da bu yarışda aktivinə bürünc yazdırıb.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik